# CİNAYƏT TÖRƏTMİŞ YETKİNLİK YAŞINA ÇATMAYANLARIN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

Anar CAVADOV*

**Xülasə:** Məqalə yetkinlik yaşına çatmayanların cinayət törətmə səbəblərini, onların psixoloji xüsusiyyətlərini və cəmiyyətə təsir edən amillərini araşdırır. Statistik məlumatlara əsasən, son illərdə Azərbaycanda yeniyetmələr tərəfindən törədilən cinayətlərin sayı artmış, xüsusilə ağır cinayətlərin xüsusi çəkisi yüksəlmişdir. Məqalədə bu kriminal davranışların səbəbləri arasında ailə mühiti, psixoloji amillər, sosial təsirlər və hüquqi savadsızlıq kimi faktorlar qeyd edilir. Yeniyetmələrin emosional qeyri-sabitliyi, özünütəsdiqə olan yüksək ehtiyacları, sosial təsirlərə həssas olmaları onların cinayət törətməyə meyilliliyini artırır. Müəllif, yetkinlik yaşına çatmayanların cinayətkarlığının qarşısını almaq üçün ailədə və məktəbdə düzgün tərbiyə, sosial-psixoloji tədbirlərin həyata keçirilməsinin vacibliyini vurğulayır. Məqalədə yetkinlik yaşına çatmayanların kriminal davranış motivləri də araşdırılmışdır. Profilaktik tədbirlər çərçivəsində risk qrupuna aid yeniyetmələrlə psixoloji işin aparılması, onların təhsil və idmana cəlb edilməsi, ailədaxili mühitin yaxşılaşdırılması və hüquqi maarifləndirmənin artırılması tövsiyə olunur.

***Açar sözlər:*** *Psixoloji amillər, Sosial təsirlər, Ailə mühiti, Profilaktik tədbirlər*

**Psychological Features of Juveniles Who Have Committed Crimes**

**Abstract:** The article examines the reasons behind juvenile delinquency, their psychological characteristics, and the social factors influencing their behavior. Statistical data indicate that in recent years, the number of crimes committed by juveniles in Azerbaijan has increased, with a significant rise in the proportion of serious offenses. The article highlights factors such as family environment, psychological issues, social influences, and legal illiteracy as key contributors to juvenile crime. Adolescents' emotional instability, strong need for self-affirmation, and susceptibility to social influences increase their tendency to commit offenses. The author emphasizes the importance of proper upbringing in families and schools, as well as the implementation of socio-psychological measures to prevent juvenile delinquency. The article examines the motives for juvenile criminal behavior. Preventive measures include psychological work with at-risk juveniles, encouraging their participation in education and sports, improving family environments, and increasing legal awareness.

***Key Words:*** *Psychological factors, Social influences, Family environment, Preventive measures*

## Giriş

Hər bir sivil cəmiyyətin irəliyə döğru inkişafında gənc nəsil önəmli rol oynayır. Bu baxımdan cəmiyyətin inkişafının sosial bazasını da sağlam mühitdə böyümüş, layiqli vətəndaş kimi yetişməsi üçün tərbiyə olunmuş yetkinlik yaşına çatmayan şəxslər təşkil edir. Qlobal bir problemə çevirilmiş bu amil hazırda dövlət siyasətinin prioritetlərindən hesab olunur. Belə bir problemin mövcudluğu yetkinlik yaşına çatmayanların kriminal davranışlarının öyrənilməsinin və buna gətirib çıxaran sosial, mənəvi və psixoloji amillərin tədqiq olunaraq, bu halların aradan qaldırılması yollarının müəyyən edilməsinin aktuallığını önə çıxarır.

Son illərin rəsmi cinayət statistikasına nəzər salsaq, 2019-cu ildə Azərbaycanda qeydə alınmış 26672 cinayətdən 323-ü 14-17 yaşda olan uşaqlar tərəfindən və ya onların iştirakı ilə törədildiyini deyə bilərik. Qeyd edək ki, bu ildə yetkinlik yaşına çatmayanlar tərəfindən törədilən cinayətlərin 185-i oğurluq, 18-i qəsdən sağlamlığa ağır zərər vurma, 12-i xuliqanlıq, 12-i narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi, 4-ü qəsdən adam öldürmə və adam öldürməyə cəhdlə bağlı olmuşdur. 2019-cu ildə cinayət törətmiş 14-17 yaşda olan uşaqların sayı 387 olmuş (cinayət törətmiş şəxslərin ümumi sayında xüsusi çəkisi 2.2%), onlardan 95-i 14-15 (24,5%), 292-i isə (75,5%) 16-17 yaşda olan uşaqlar təşkil etmişdir. Yetkinlik yaşına çatmayanların 225-i (58,1%) kriminal əməlləri qrup şəklində törətmişlər (2, s.44). Statistik təhlil 2023-cü ildə Azərbaycanda qeydə alınmış 36811 cinayətdən 364-n 14-17 yaşda olan uşaqlar tərəfindən və ya onların iştirakı ilə törədildiyini göstərir. Bu ildə yeniyetmələr tərəfindən törədilən cinayətlərin 164-ü oğurluq, 22-i dələduzluq, 17-i xuliqanlıq,

*Avukat, Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü, "Cinayət prosesi və kriminalistika" sahəsində Hüquq üzrə Fəlsəfə Doktoru, Bakı Biznes Universitetinin "Humanitar elmlər kafedrasının" müəllimi, Bakı Dövlət Universitetinin "Cinayət hüququ və kriminologiya" kafedrasının Elmlər Doktoru proqramı üzrə Doktorantı, E-mail: vekil_anar@mail.ru

16-ı narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi, 15-i qəsdən sağlamlığa ağır zərər vurma, 8-i qəsdən adam öldürmə və adam öldürməyə cəhdlə bağlı olmuşdur. 2023-cü ildə cinayət törətmiş 494 yeniyetmədən 107-i (21,6%) 14-15, 387-i (78,4%) isə 16-17 yaşda olan şəxslər təşkil etmişdir. Yeniyetmələrin 80-ı (16,2%) cinayəti qrup şəklində törətmişlər (3, s.46).

Statistika həmçinin yetkinlik yaşına çatmayanlar tərəfindən törədilən cinayətlərin sayının artması ilə yanaşı, bu cinayətlərin ictimai təhlükəlilik dərəcəsinin yüksəldiyini, bu kateqoriyalı kriminal əməllər arasında ağır və xüsusilə cinayətlərin sayının və xüsusi çəkisinin artdığını göstərir. Belə ki, 2019-cu ildə bu kateqoriyalı şəxslər tərəfindən törədilən 323 cinayətdən 32-i (9,9%) ağır və xüsusilə ağır cinayət olduğu halda, 2023-cü ildə qeydə alınmış 364 cinayətdən 46-ı (12,6%) ağır və xüsusilə ağır cinayət olmuşdur. Göründüyü kimi, 2019-cu illə müqayisədə yeniyetmələr tərəfindən törədilən cinayətlərin strukturunda ağır və xüsusilə ağır cinayətlərin xüsusi çəkisi xeyli artmışdır.

Professor Ş.T.Səmədova bu məsələyə toxunaraq qeyd edir ki, «yetkinlik yaşına çatmayanların cinayətkarlığının dinamikası son illərdə cinayət məsuliyyətinə cəlb olunmuş bu kateqoriyalı şəxslərin sayının nisbi sabitliyini göstərir: bütün qeydə alınmış cinayətlərin orta hesabla 3%-ə qədəri yetkinlik yaşına çatmayanlar tərəfindən törədilir». Müəllif, yeniyetmələr tərəfindən törədilən cinayətlərin böyük hissəsinin tamah-zorakı istiqamətliliklə səciyyələndiyini, bu növ cinayətkarlığın kəmiyyət və keyfiyyət göstəricilərində narahat doğurucu hallardan birinin də yetkinlik yaşına çatmayanlar tərəfindən törədilən cinayətlərin strukturunda ağır və xüsusilə ağır cinayətlərin xüsusi çəkisinin yüksək olduğunu (13%-ə yaxın) göstərir (26, s.24).

Qeyd olunanlar isə yeniyetmələr tərəfindən törədilən cinayətlərin qarşısının alınması və profilaktikasının aktual sosial-hüquqi, kriminoloji və psixoloji problemlərdən birinə aid etməyə əsas verir.

Təbii ki, uşaqlar tərəfindən törədilən cinayətlər sistemli məcmu etibarı ilə cinayətkarlığın tərkib hissəsidir və cinayətkarlığa xas olan bir sıra ümumi cəhətlərin və xarakteristikaların daşıyıjısıdır. Lakin bununla belə, yetkinlik yaşına çatmayanlar tərəfindən törədilən cinayətlər bu kateqoriyalı şəxslərin yaş xüsusiyyətləri ilə bağlı səciyyəvi özəlliklərə də malikdir və buna görə də, müstəqil cinayətkarlıq növü kimi nəzərdən keçirilə bilər. V.D.Malkovun qeyd etdiyi kimi, belə fərqləndirmənin zəruriliyi yetkinlik yaşına çatmayanların somatik, mənəvi və psixoloji inkişafı xüsusiyyətləri və onların sosial cəhətdən şəxsiyyət kimi hələ tam formalaşmaması ilə şərtlənmişdir (22, s.164). Prof. F.Y.Səməndərov düzgün olaraq yazırdı ki, *«əməlin xarakterini dərk etmək və öz hərəkətlərini idarə etmək qabiliyyəti şəxsin doğulması ilə bir vaxtda yaranan xüsusiyyət deyildir. Şüur, təfəkkür, insanın özünü və ətraf mühiti dərk etməsi, özünün və başqalarının davranışına qiymət vermək qabiliyyəti tədricən, illər boyu formalaşır. Əqli kamillik, öz davranışını dərk etmək və özünü idarə etmək qabiliyyəti şəxsin müəyyən yaş həddinə, yetkinliyə çatmasını tələb edir»* (9, s.264-265).

Yeniyetməlik dövründə uşaqların orqanizmi daimi fizioloji və psixoloji inkişafla səciyyələnir. Emosionallıq, təsirlilik qabiliyyəti dəyişir, özünüifadəyə və özünütəsdiqə, səmimi hisslərini, həyəcan və duyğularını açıq nümayiş etdirməyə zərurət yaranır. Bu dövrdə yeniyetmələrdə hiss və duyğuların, həyacanlılığın nümayişi üzrə güclü istək yaranır ki, bu da ətrafdakılara münasibətdə kobudluqla, müvazinətsizliklə, təcəvüzkarlıqla müşayiət oluna bilər.

Qeyd edək ki, yetkinlik yaşına çatmayan şəxslərin psixofizioloji inkişafı xüsusiyyətləri ilə səciyyələnən emosional qeyri-sabitlik əhval-ruhiyyənin tez-tez dəyişməsinə gətirir. Yeniyetmələr inadcıl, özünüsevən və dəymədüşər, yəni tez bir zamanda inciyən və küsəyən olurlar. Onlarda həmçinin əsassız şübhələr, lovğalıq, həmyaşıdlarının, xüsusən də böyüklərin yanında özünü göstərmə kimi psixoloji vəziyyətlər də tez-tez müşahidə olunur.

Yetkinlik yaşına çatmayanlar tərəfindən törədilən cinayətlərin kriminoloji tədqiqi zamanı bu əməllərin baş verməsinin səbəblərinin, bu kateqoriyalı kriminal əməllərin törədilməsinə şərait yaradan psixoloji amillərin də araşdırılması mühüm əhəmiyyət kəsb edir.

Cinayət törətmiş hər bir şəxsin, xüsusən də yetkinlik yaşına çatmayanların kriminal davranışını anlamaq, xüsusilə ciynayətkarın hər hansı davranışını qiymətləndirmək üçün hər şeydən əvvəl, onun şəxsiyyətini xarakterizə edən sosial-psixoloji cəhətləri öyrənmək, daha sonra isə yeniyetmələrin kriminal davranışlarını şərtləndirən amillərin, səbəbə və şəraitlər kompleksinin aradan qaldırılmasına istiqamətlənən profilaktik tədbirlər sistemini işləyib hazırlayarkən bunları nəzərə almaq vacibdir.

Yetkinlik yaşına çatmayanların cəmiyyətəzidd davranışına təsir edən amillər kompleksində şəxsiyyətin fərdi psixofizioloji xüsusiyyətləri və xarici sosial mühitin neqativ təsiri xüsusi qeyd olunmalıdır. E.V.Demodovanın yazdığı kimi, cinayət törətmiş yetkinlik yaşına çatmayanın şəxsiyyəti – onda təşəkkül tapmış sosial və fərdi psixofizioloji xassə və xüsusiyyətlərin məcmusu olmaqla müəyyən dərəcədə onu əhatə edən mikro sosial mühitlə determinləşir. Məhz fərdi psixofizioloji xüsusiyyətlərlə ətraf sosial mühitin qarşılıqlı təsiri nətijəsində yeniyetmələrin, o cümlədən cinayət törətmiş yeniyetmənin şəxsiyyəti formalaşır (16, s.117-118). Məsələn, h.e.d., prof. F.Y.Səməndərov, cinayətkarlığın səbəb və şəraitlərinin idrakının kriminologiya elmi qarşısında duran ən aktual problemlərdən biri kimi qiymətləndirmiş və göstərmişdir ki, *«Cinayətkarlıq sosial hadisə kimi sosial mühitin amilləri ilə daxili subyektiv amillərin qarşılıqlı əlaqəsində doğur».* Müəllif, eyni zamanda hesab edirdi ki, *«kriminal davranışın bilavasitə obyektiv səbəbləri mikromühitdə mərkəzləşir, mikromühitin kriminoloji amilləri spesifik qaydada burada özünü büruzə verir»* (10, s.77-78).

Prof. İ.M.Rəhimov düzgün olaraq yazır ki, cinayətlərin səbəblərinin *«mənbəyi mənfi xarici sosial-iqtisadi şəraitin və vəziyyətin təsiri nəticəsində yaranan şəxsiyyətin psixofizioloji xüsusiyyətlərindədir»* (7, s.122). İ.M.Rəhimovun belə bir mövqeyi də əsaslı hesab edilməlidir ki, kriminal davranışın reallaşdırılması əsasən insanın psixofizioloji xüsusiyyətlərindən irəli gəlir. *«Sosial mühitə daha çox cinayətkar davranışın səbəbi kimi deyil, insanın psixofizioloji xüsusiyyətlərinin təzahürü kimi baxılmalıdır»* (7, s.118-119).

Şəxsin cəmiyyətə zidd baxışlarının, cinayətkar niyyətlərinin yaranması və əməldə gerçəkləşməsinin həqiqi səbəblərini aydınlaşdırmaq üçün, ilk növbədə cinayətin subyektiv tərəfinin elementlərindən biri olan cinayətin motivlərini müəyyənləşdirmək vacibdir.

İ.B.Ağayev motivin psixoloji kateqoriya olduğunu qeyd edərək göstərir ki, *«davranışın motivi şəxsin hüquqazidd hərəkətlərinin səbəblərini aydınlaşdırmağa kömək edir, hüququ pozan şəxsin şəxsiyyətini xarakterizə edir və cəzanın fərdiləşdirilməsi zamanı nəzərə alına bilər»* (1, s.154).

Prof. Ş.T.Səmədova cinayətin subyektiv cəhətinin fakultativ əlaməti kimi motivin *«ictimai təhlükəli əməli törətməyə qətiyyət yaradan, konkret əməldə maddiləşən dərk olunmuş daxili tələbat»* olduğunu qeyd edir (8, s.31).

A.Kərimli motivləşmə prosesinin əsas mərhələləri, cinayət-hüquqi anlamda motivin səciyyəvi cəhətləri olaraq göstərir: *1) motiv əsasında şəxsin maddi və ya mənəvi tələbatı durur; 2) kriminal əməli törətmək barədə daxili oyanma adətən təhrif olunmuş tələbata əsaslanır; 3) bu oyanma şüurla əhatə olunur və dərk edilir; 4) dərk olunmuş oyanma özü üçün konkret obyekt və ya predmet axtarır ki, bunun da nəticəsində bütün hərəkət buna doğru istiqamətləndirilir, predmetin özü isə şəxsi kriminal əməli törətməyə təhrik edən hərəkətverici qüvvəyə çevrilir; 5) motivin yaranması, formalaşması və inkişafı motivlərin mübarizəsi şəraitində baş verir* (6, s.47-48).

Qeyd edək ki, motivasiya, o cümlədən kriminal motivasiya statistik deyil, dinamik prosesdir və onun gedişində kriminal əmələ təhrik edən ilkin motiv dəyişə, yeni motivlər yaranaraq əvvəlki motivi üstələyə və aparıcı motivə çevrilə bilər. Məsələn, məhkəmə-istintaq təcrübəsindən məlumdur ki, bəzən yeniyetmələrin xuliqanlıq niyyəti ilə başlanan kriminal

əməlləri sonradan tamah (məsələn, soyğunçuluq və ya quldurluğa) və ya zorakı (məsələn, sağlamlığa ağır zərər vurma) xarakterli cinayətlərə çevrilir. Bu isə artıq kriminal əməlin törədilməsi gedişində kriminal davranışın motivinin dəyişməsini, bir motivin digəri ilə əvəz olunması deməkdir.

E.Əhmədova, hüquqazidd davranışlı yeniyetmələrin şəxsiyyətinin struktur elementi kimi çıxış edən motivasiya prosesinin, kriminal davranışa təhrik edən motivlərin müəyyən edilməsinin zəruriliyini qeyd edərək yazır ki, davamlı motivlərin müəyyənləşdirmək üçün təqsirləndirilən şəxsin həyat tərzini, şəxsiyyətinin istiqamətini, xarakter əlamətlərini və xüsusiyyətlərini ətraflı və dəqiq öyrənmək tələb olunur. Müəyyən hallarda, hər hansı şəraitlə bağlı meydana çıxan və ilk nəzərdə təsadüfi hal kimi qiymətləndirilən situativ motivlərin özünün də məhz davamlı motivlərin təzahürləri olmaları nəzərə alınmalıdır. Həyatda davamlı motivlərin özünü göstərməsinə, insanın özünün emosional vəziyyəti güclü təsir göstərir. Yetkinlik yaşına çatmayanın hüquqazidd hərəkətlərinin psixoloji və sosial-psixoloji əsaslarının təhlilində bu davranışlara təsir edən yönəlişlər mühüm yer tutur. Çünki bu yönəlişlərin özləri davranışı müəyyən edir. Onların öz qarşısına qoyduğu məqsədə necə nail olmağa çalışdıqlarını əks etdirir (4, s.88). E.B.Kirillova yetkinlik yaşına çatmayanların hüquqazidd davranışının psixoloji xüsusiyyətləri kompleksində həmçinin: *cinayətkar davranışın əsasında impulsiv və situativ xarakterli motivlərin daha geniş yayılması; özünütəsdiqlə bağlı amillərin yüksək təsiri; davranışın motivasiyasında qrup inteqrasiyasının xüsusi əhəmiyyət kəsb etməsi; təlqid və təlqin etmə kimi sosial-psixoloji hadisələrin böyük rol oynamas*ını qeyd edir. Müəllif, yetkinlik yaşına çatmayanlarda əylənmək, özünü təsdiq etmək, diqqəti cəlb etmək, digər yeniyetmələrdən fərqlənmək, qeyri-formal qrupda nüfuz qazanmaq istəyi ilə şərtlənən impulsiv və situativ motivlərin üstünlük təşkil etdjiyini göstərir və hesab edir ki, məhz bu motivlərin təsiri altında yeniyetmələr cinayət törədirlər (20, s.659). N.Y.Jukovskaya və D.S.Kazarova isə yazırlar ki, yetkinlik yaşına çatmayanlar üçün hüquqi savadsızlıq, hüquqi təcrübənin azlığı və məhdudluğu, dəyərlər sisteminin, davranış standartlarının spesifik toplusu, daxili özünənəzarətin və məsuliyyətin aşağı səviyyəsi xarakterikdir. Bütün bunlar və digər sosial-psixoloji xarakterli amillər bir sıra hallarda onlar tərəfindən düşünülmədən, spontan olaraq cinayət törətmək və ya cinayətdə iştirak etmək haqqında qərarın qəbuluna gətirə bilər (18, s.56-62).

Bəzən yetkinlik yaşına çatmayanların törətdikləri cinayət əməllərinin motivlərinin müəyyənləşdirilməsi zamanı qarşıya çıxan mürəkkəbliklərin bir sıra hallarda həmin əməllərin motiv olmadan baş verməsi ilə izah edilir. Fikrimizcə, belə bir yanaşma uğurlu sayıla bilməz. Belə ki, hər bir şüurlu davranış və hərəkət kənardan dərk oluna bilən, ya da dərk olunmayan motivlərlə müşaiyət olunur. Buna görə də, cinayət xarakterli davranışın, cinayətkar əməlin motivini, onun davranışının əsas psixoloji xüsusiyyətlərini nəzərə almadan müəyyənləşdirmək istəyi yanlış nəticələrə də gətirib çıxara bilər.

Hesab edirik ki, yeniyetmələrin hüquqazidd davranışlarının motivasiya sisteminin, motivlər kompleksinin öyrənilməsi və üzə çıxarılması cinayətkar davranış yolunu seçmiş yetkinlik yaşına çatmayan şəxslərə tərbiyəvi və maarifləndirici xarakter daşıyan sosial-psixoloji təsir metodlarının və üsullarının düzgün seçimi, uşaq cinayətkarlığının profilaktikasının daha ümumi vəzifələrinin həlli üçün də olduqca mühümdür.

Yetkinlik yaşına çatmayanların şəxsiyyət sferasını onun malik olduğu dəyərlər sistemi, intellektual göstəriciləri, emosional və iradi xassələrinin xüsusiyyətləri təşkil edir. Onların malik olduqları əqidə, maraq dairəsi, tələbatı və onların ödənilməsi üsulları, şəxsiyyətlərinin formalaşmasında hansı səviyyədə və necə çıxış etməsinin göstəricisidir. Hüquqazidd davranışlı yeniyetmələrin əksəriyyətində ictimai mahiyyətə malik, yüksək ideallar mövcud olmur. Onlarda intellektual və ümumi inkişaf səviyyəsi bir qayda olaraq aşağı olur. Davranışda, hüquq düşüncəsindəki nöqsanlarla yanaşı, psixoloji və sosial-psixoloji xarakterli çatışmazlıqlar da özünü göstərir. Mərhəmətsizlik, qərarsızlıq, eqoizm, həddindən ziyadə şöhrətpərəstlik, qəddarlıq,

intellektual kütlük və qısqanclıq kimi hisslər də bu tip yeniyetmələrin xarakterik cəhətlərinə aid edilə bilər (4, s.85).

Yeniyetmələrin şəxsiyyəti üçün xarakterik olan ziddiyyətlər sırasına bir tərəfdən ədalətsizliyə dözümsüzlük, digər tərəfdən isə həyat mürəkkəbliklərindən baş çıxarmağı bacarmamaqdan irəli gələn ədalətsiz hərəkətlər; təkmilləşməyə və inkişaf etməyə can atma və bu məqsədə çatmaqda kömək edəcək tərbiyəvi proseslərə neqativ münasibət; böyüklərin, xüsusən də valideynlərin, yaşja böyük ailə üzvlərinin, məktəb müəllimlərinin köməyinin və dəstəyinin zəruriliyinin dərk edilməsi ilə yanaşı, kömək və məsləhət üçün onlara müraciət etmək istəməmələri; arzu və istəklərin çoxluğu və onları həyata keçirmək üçün qüvvə və vəsitlərin kifayət etməməsi; özünütəsdiqə can atma və bunu düzgün olaraq necə etməyi bilməmə və ya bacarmama və s.

Yeniyetmələrin həyat təcrübəsinin azlığı, təəssüratların, fikir və əqidələrin kifayət qədər obyektiv olmaması onların tələbatlarının özünəmxsusluğuna, maraqların isə qeyri-sabitliyinə gətirir. Psixoloji xarakterli səbəblər sırasında həmçinin mənəvi və hüquqi yönəlişlərin deformasiyası; mənəvi-əxlaqi hisslərin kütləşməsi, zəifləməsi, digər insanların həyacan və iztirablarına, hiss və duyğularına laqeyd və biganə münasibətin müşahidə olunması; mərhəmətsizlik; sinir-psixi anomaliyaların yaranması, tədricən dərinləşməsi və kəskinləşməsi; risklərə meyllilik; özünüqiymətləndirmənin aşağı səviyyəsi və digərlərini də göstərmək mümkündür. Təbii ki, qeyd olunan bu psixofizioloji xüsusiyyətlər yeniyetmələrin hər birində müxtəlif dərəcə və səviyyədə təzahür edir ki, bu da istər obyektiv, istərsə də subyektiv xarakterli amillərlə bağlıdır *(məsələn, ali sinir fəaliyyətinin tipi, irsilik, həyat şəraiti, mikromühitin təsiri və s.)*.

Sosial immunitetə, müqavimət göstərmə imkanına, kifayətedici hüquqi savad və mədəni səviyyəyə malik olmayan yeniyetmələr kriminal yönümlüyü ilə fərqlənən şəxslərin pozucu təsirinə asanlıqla düşür ki, bu da müəyyən şəraitlərdə onlarda hüquq pozuntularını, o cümlədən cinayətləri törətmək niyyətinin yaranmasını şərtləndirə bilər.

Lakin nəzərə alınmalıdır ki, yetkinlik yaşına çatmayan hüquqpozucularının şəxsiyyətinin inkişafı mürəkkəb, fərdi xüsusiyyətlərə malik proses olmaqla, ailə mühiti, məktəb, sosial ətraf və sair kimi çoxsaylı amillərdən asılıdır.

Yetkinlik yaşına çatmayanların kriminal davranışının yaranmasının əsas səbəblərindən bi də onların döğulub yaşadığı ailəsi ilə bağlıdır. Məhz ailə bu kateqoriyalı şəxslər tərəfindən cinayətlərin törədilməsinə şərait yaradan əsas faktorlardan biridir. Çünki insan xarakterinin bünovrəsi ailədə qoyulur. Hər bir şəxsin sosial simasının formalaşması erkən yaşlardan, ailə mühitində yaşadığı dövrdən başlayır. Məhz ailədə yetkinlik yaşına çatmayanlara olan münasibət onların hələ kövrək və formalaşmaqda olan şəxsiyyətlərinə müsbət və ya mənfi təsir göstərməklə, onlarda müvafiq keyfiyyətlərin yaranmasına gətirib çıxarır. Bu baxımdan inamla deyə bilərik ki, yetkinlik yaşına çatmayanların şəxsiyyətlərində mövcud olan müsbət və yaxud mənfi keyfiyyətlərin əsas hissəsi onun yaşadığı ailə mühitində formalaşır. Yetkinlik yaşına çatmayanların gələcək davranışalarında yarana biləcək kriminogen əlamətlərin qarşısının alınmasında ailə mühüm vasitə kimi çıxış edə bilir. Əgər nəzərə alsaq ki, yetkinlik yaşına çatmayanların öz valideynləri, onların erkən vaxtdan həyata baxışlarının, bilik və bacarıq vərdişlərinin istiqamətlənməsində nə dərəcədə rol oynayır, onda sağlam ailənin yetkinlik yaşına çatmayanların cinayətkar aləmdən uzaqlaşdırılmasında necə əhəmiyyətli rol oynaya biləcəyinə heç bir şübhə qalmır. Bunu həm də aparılmış kriminoloji tədqiqatlar bir daha təsdiq edir. Belə ki, tədqiqatlar göstərir ki, yetkinlik yaşına çatmayan cinayətkarlar bir qayda olaraq, erkən yaşlarından natamam və ya yarımçıq ailələrdə böyüyən, baxımsız, tərbiyələri qüsurlu olanlardır. Yetkinlik yaşına çatmayan cinayətkarlar əsasən düzgün olmayan tərbiyə nəticəsində şəxsiyyətlərinin deformasiyası səbəbindən öz təlabatlarını istədikləri anda ödəmək məqsədilə, cinayət əməllərini törədirlər. Bu xarakterli əməllər, onların öz ehtiyaclarını qarşılamaq üçün yaranan maneələri anında aradan qaldırlmaq istəyindən irəli gəlir.

Bəzi müəlliflər tərəfindən yetkinlik yaşına çatmayanların qanunazidd davranışları ailədə münaqişəli vəziyyətlərə, pozulmuş şəxsiyyətlərarası münasibətlərə etiraz forması kimi nəzərdən keçirilir (25, s.7-8), *«işədüşmə»* mexanizmi kimi isə yeniyetmədə psixoloji problemlərin olması göstərilir (27, s.81).

Aydındır ki, valideynlər arasında münaqişələr, həmçinin münaqişələrin həllinin qeyri-adekvat yollarının seçimi, valideynlər və uşaqlar arasında lazımi səviyyədə kommunikativ əlaqə və təmasların olmaması ailə mühitində qeyri-sabitliyə və gərginliyə, uşaqlarda emosional narahatlığın yaranmasına, onların davranışında ciddi sosial-psixoloji dəyişikliklərin baş verməsinə, hətta bəzi hallarda cinayətlərin törədilməsinə gətirə bilər.

M.Hacıyeva kriminogen potensialının kifayət qədər yüksək olan amillər sırasında qeyd edir: *«yetkinlik yaşına çatmayanların keçid dövründə (12-14 yaş) valideynlərin əxlaqa zidd həyata tərzi sürmələri, onların spirtli içkilərə və narkotik vasitələrə aludəçiliyi, ailədə yetkinlik yaşına çatmayana qarşı zorakılıq hallarının, ona qarşı şəxsiyyətini və ləyaqətini alçaldan hərəkətlərin mövcudluğu, ailədə və təhsil müəssisəsində yetkinlik yaşına çatmayanların heysiyyatına toxunan laqeyd münasibətin olması»* (5, s.182).

Təcrübə göstərir ki, yetkinlik yaşına çatmayanların kriminal davranışlarına təsir vasitəsindən biri də onların valideynlərinin öz mənəvi və əxlaqi dəyərlərə münasibətlərini necə müəyyənləşdirmələridir. Bu baxımdan ailədə yetkinlik yaşına çatmayanların kriminal davranışlarının yaranmasının səbəbləri kimi, ailədə mənəvi və əxlaqi dəyərlərin təbliğinin aşağı səviyyədə olmasını, yetkinlik yaşına çatmayanların keçid dövründə, əsaən 12-14 yaşlarında ailə təsirinin zəif olmasını, valideynlər tərəfindən yetkinlik yaşına çatmayanların intellektual inkişafının təmin edilməməsi və yetkinlik yaşına çatmayanlardan ibarət olan ailələrdə boşanmaların və natamam ailələrin sayının artmasını, valideynlərin əxlaqa zidd həyat tərzi, spirtli içkilərə və narkotik vasitələrə aludə olmasını və ailədə yetkinlik yaşına çatmayanlara qarşı zorakı davarnışın olmasını göstərmək olar. N.N.Artamenko, L.O.Maleyeva və Ə.S.Dikusar qeyd edirlər ki, məhz ailədaxili problemlər səbəbindən bəzi yeniyetmələr mənəvi-əxlaqi və sosial dəyərlərin daşıyıjı-obyekti kimi asosial qrupları seçir, bunun da nəticəsində yeniyetmələrin aktivliyi, enerjisi, bacarıqları kriminal istiqamətlər ala bilir (12, s.15-16; 17, s.30-36).

Hesab edirik ki, ailə uşaqların inkişafında, onlarda dəyərlər sisteminin, davranış normalarının, özünütənzimləmə və idarəetmə bacarıqlarının və vərdişlərin formalaşmasında həlledici rol oynayır. Ona görə də bu kateqoriyalı şəxslər tərəfindən törədilən cinayətlərin sosial-kriminoloji və psixoloji analizi zamanı ailə mühitinin və tərbiyə məsələlərinin analizinə xüsusi diqqət yetirilməlidir.

Cinayət törətmiş yetkinlik yaşına çatmayanların psixoloji xüsusiyyətləri sırasında ətrafdakıların qiymətləndirmələrinə qeyri-adekvat reaksiya, onlara münasibətdə kəskin fikir və mülahizələr bildirmə, həddən artıq özünəinam və digərləri göstərilə bilər. Bu şəxslərin davranışında utancaqlıq, həddən artıq sərbəstlik və ədəbsizlik, qeyri-sabitlik və əhval-ruhiyyədə kəskin dəyişikliklərin baş verməsi kimi emosional halları müşahidə etmək mümkündür. Bu kateqoriyalı şəxslərdə kifayət qədər yüksək səviyyədə müstəqillik, əminlik, inadkarlıq özünü gəstərir. Onlar özünü böyük kimi göstərməyə, müstəqil olmasını nümayiş etdirməyə can atırlar. O.S.Noskov hesab edir ki, bu yaş üçün xarakterik olan əsas cəhət onlarda yaranan *«artıq böyümüşəm»* hissidir. Bu hiss şəxsiyyətin əsas xüsusiyyətinə çevrilməklə özünü cəmiyyətə, ətrafdakılara göstərmək istəyi ilə müşayiət olunur ki, bu da bir sıra hallarda istər həmyaşıdlarına, istərsə də özündən böyük olan yetkin yaşda olan şəxslərə münasibətdə hüquqazidd hərəkətlərə kriminal davranışa gətirə bilər (23, s.154).

Tələbatlar və bu tələbatlarla şərtlənən motivlər yeniyetmənin istər müsbət, istərsə də neqativ istiqamətli aktivlik mənbəyi kimi çıxış edir. Təmin olunmamış tələbatlar müəyyən obyektiv və subyektiv hallarla, amillərlə müşayiət olunduqda cinayətkar davranışın mürəkkəb və birmənalı olmayan motivasiya proesinin əsasını təşkil edə, yetkinliklik yaşına çatmayanlar

tərəfindən hüquq pozuntularının, o cümlədən də müxtəlif cinayətlərin törədilməsinin təhrikedici amilləri qismində çıxış edə bilərlər.

Prof. X.C. Ələkbərov hesab edir ki, cinayətkarlığın başlıca səbəbi qismində insanın təmin olunmayan tələbatı çıxış edir. Müəllifin fikrincə, insanlar tərəfindən qəsdən cinayətlərin törədilməsi zamanı motivasiya qismində həmişə onların reallaşdıra bilmədiyi və ya hüquq çərçivəsində reallaşdırmaq istəmədiyi təmin olunmamış tələbatlar çıxış edir. Cinayətkar motivasiyanın formalaşmasında iştirak edən iqtisadi, sosial və digər xarakterli amillər fakultətiv tərkiblidir. Müəllif yazır ki, cinayətkarlığın səbəblərini insanın özünün daxilində axtarmaq lazımdır və bu daxili səbəblər təmin olunmamış tələbatlar şəklində özünü göstərir. Eyni zamanda X.C.Ələkbərov, hər bir təmin olunmamış tələbatların həmişə cinayətə gətirib çıxarmadığını da qeyd edir: "o da tamamilə aydındır ki, hər bir qəsdən törədilən cinayət bilavasitə insanın təmin olunmamış tələbatının reallaşdırılmasının nəticəsidir" (11).

Araşdırmalar cinayət törətmiş yeniyetmələrin tələbatlar sahəsində bir sıra deformasiyaların mövcudluğunu göstərir: *1) sosial faydalı tələbatlar kompleksinin zəifləməsi; 2) bəzi tələbatların primitiv və eybəcər xarakteri; 3) müxtəlif növ tələbatlar arasında tarazlığın pozulması; 4) bəzən eybəcər formalar alan özünütəsdiqə istiqamətlənmiş tələbatların geniş yayılması; 5) bəzi tələbatların dərhal nəyin bahasına olursa olsun reallaşdırmağa can atma və s.*

Xüsusi ədəbiyyatda yetkinlik yaşına çatmayanların qanunazidd davranışını şərtləndirən amillər qismində onların fərdi psixofizioloji xüsusiyyətləri, şəxsiyyətlərarası münasibətlərin spesifikası, şəxsiyyətin dəyər-motivasiya sisteminin deformasiyaya uğraması, ailə və məktəb tərbiyəsində mövjud nöqsan və çatışmazlıqlar, davranışın öz-özünə tənzimləməsində yaranan problemlər və s. göstərilir, yeniyetmə hüquq pozujuları üçün qeyri-adekvat özünüqiymətləndirmənin xarakterik olduğu da qeyd olunur (21, s.26-28; 24, s.116-134; 28, s.4-8). E.O.Smolyeva və S.N.Şişigina yetkinlik yaşına çatmayanların hüquqazidd davranışlarının formalaşmasına əsasən aşağıdakı amillər təsir etdiyini göstərirlər: *1) ailə səviyyəsində təzahür edən sosial-psixoloji amillər: ailə tərbiyəsinin düzgün olmayan üslubu (nəzarətsizlik, sərt cəzalar, təcrid etmə, valideynlərin laqeyd münasibəti və s.); bəzi ailə üzvlərinin deviant davranışları (sərxoşluq, narkotik istehlakı, kriminallıq); ailədaxili ünsiyyətin əsasən məktəb davamiyyətinə və təhsildə müvəffəqiyyət səviyyəsinə nəzarətlə bağlı olması və s.; 2)məktəb və referent qruplar, yəni yeniyetməni əhatə edən yaxın ətraf səviyyəsində özünü göstərən sosial-psixoloji amillər: təhsildə uğursuzluq, sinif yoldaşları tərəfindən təcrid olunma, əhatəsində olduğu şəxslərin cəmiyyətəzidd və əxlaqa zidd hərəkətləri* (27, s.87).

Özünüqiymətləndirmə, motivasiya, emosional sabitlik, empatiya *(digər şəxslərin emosiyalarını başa düşmək və anlamaq)* qabiliyyəti cinayət törətmiş yetkinlik yaşına çatmayanların davranış modellərinin formalaşmasında mühüm rol oynayırlar. Onların bəziləri üçün özünüqiymətləndirmə səviyyəsinin aşağı olması xarakterik olduğundan, onlar bunu qanunazidd üsullardan istifadə etməklə, cinayətkar hərəkətlər vasitəsilə kompensasiya etməyə çalışırlar. Digərlərində özlərinin təcavüzkarlığına nəzarət etmədə çətinliklər və ya emosional pozuntular müşahidə oluna bilər ki, bunlar da məjmu halda cinayətkar davranış meylinin yaranmasına kömək edə bilər (14, s.3).

Yetkinlik yaşına çatmayanların cəmiyyətəzidd davranışlarını determinə edən amillər sırasında ailədə münaqişəli şərait; ailə üzvlərinin bir birinə biganəliyi; özünütəsdiqə yüksək meyllilik; müsbət dəyərlər sisteminin mənfi xarakterli yönəlişlərlə əvəzlənməsi; emosional həyacanlığın yüksək səviyyəsi; təlqinə qapılma və digərləri ilə yanaşı, sosial şəbəkələrin, internetin neqativ təsiri də qeyd oluna bilər. K.E.İqoşev hesab edir ki, uşaqlarda dünyagörüşün formalaşmasında kütləvi kommunikasiya vasitələri, sosial şəbəkələr, internet də neqativ rol oynamağa başlamışdır *(informasiya-telekommunikasiya şəbəkələri vasitəsilə narkotiklərin istehlakının, qəddarlığın və zorakılığın təbliği, uşaq pornoqrafiyasının yayılması və s.)* (19, s.3-7).

Qeyd olunan bu və digər amillər, müasir şəraitdə cinayət törətmiş yetkinlik yaşına çatmayanlara münasibətdə hüquqi məsuliyyət, o cümlədən cinayət məsuliyyəti və məsuliyyətin differensiasiyası ilə bağlı məsələlərin sistemli, elmi zəmin əsasında həlli ilə yanaşı, bu kateqoriyalı şəxslərə, həmçinin risk qrupuna daxil olan yeniyetmələrə münasibətdə sosial-psixoloji xarakterli profilaktik tədbirlər kompleksinin də işlənib hazırlanaraq həyata keçirilməsini zəruri edir: *yeniyetmələrin psixoloji və sosial-kriminoloji diaqnostikası; yaxın mikromühitdə, məktəbdə və ailədə uşaqların sosial statusunun yüksəldilməsi yollarının müəyyən edilməsi; yaxın ətrafın, mikrososial mühitin, ailə və məktəbin kriminogenlik baxımından psixodiaqnostikası; yeniyetmələrə münasibətdə psixokorreksiya işinin aparılması, o cümlədən hüquq normalarına zidd davranışın profilaktikasına istiqamətlənmiş məsləhət xidmətinin təşkili; uşaqların yaxın ətrafın mənfi təsirindən çıxarılması üzrə tədbirlərin görülməsi; onlarda mənəvi-əxlaqi dəyərlərin, sosial normaların və müsbət istiqamətli maraqların, bu maraqlara qanuni yollarla nail olma vərdişlərinin və bajarıclarının formalaşması üzrə sistemli işlərin aparılması; uşaqların idman və intellektal yarışlara cəlb edilməsi, onlarda yaradıcılıq potensialının inkişaf etdirilməsi; məktəbli uşaqların ictimai həyatda aktiv iştirakının təşviq edilməsi; səmərəli asudə vaxtın təşkili, ünsiyyət vərdişlərin inkişaf etdirilməsi və s.; uşaqlarda müsbət yönümlü ailədaxili qarşılıqlı münasibətlərin inkişaf etdirilməsi və bu məqsədlə uşaqların ailədəki vəziyyətinin və ailədaxili münasibətlərin psixodiaqnostikası; valideynlərlə, ailənin digər üzvləri ilə profilaktik söhbətlərin aparılması, ailə münasibətlərində mövcud neqativ halların korreksiyası, valideynlərin pedaqoji və psixoloji savadlılıq səviyyəsinin artırılması və s.* (15, s.28-33).

Beləliklə, cinayət törətmiş yetkinlik yaşına çatmayanların şəxsiyyəti bir sıra xarakteristikaların – sosial-psixoloji, demoqrafik, mənəvi, emosional-iradi, cinayət-hüquqi və psixoloji xüsusiyyətlərin daşıyıcısıdır (13, s.343-346). Məhz buna görə də, bu mühüm problemin – cinayət törətmiş yetkinlik yaşına çatmayanların şəxsiyyətinin sosial-psixoloji xüsusiyyətlərinin öyrənilməsinə daha çox diqqət ayrılmalı, bu sahədə aparılan sosial-psixoloji və kriminoloji araşdırmalar intensivləşdirilməlidir.

Yetkinlik yaşına çatmayanların törətdiyi cinayətlərin psixoloji aspektlərinin düzgün müəyyən olunması, onların kriminogen davranışlarının qarşısının alınması məqsədilə proflaktiki tədbirlərin görülməsini daha da asanlaşdırır. Nəzərə almaq lazımdır ki, proflaktiki tədbirlər fərdi, xüsusi kriminoloji və ümumsosial olmaqla 3 səviyyədə həyata keçirilir. Bu səviyyələrin hər biri özünəməxsus xüsusiyyətlərə malik olmaqla yetkinlik yaşına çatmayanların cinayətkarlığının qarşısının alınmasında səmərəli vasitələr kimi çıxış edirlər.

Fikrimizcə, hələ cinayət qanununu pozmamış, lakin bunu edə bilmək riski yüksək olan, yəni risk qrupuna daxil olan və *«çətin yeniyetmələr»* adlandırılan uşaqların ümumi, mənəvi-əxlaqi, psixoloji və hüquqi yetkinlik səviyyəsinin yüksəldilməsi üçün valideynlərin, pedaqoqların, psixoloqların, sosioloqların, hüquqşünasların, o cümlədən kriminoloqların birgə işi, inteqrativ fəaliyyəti zəruridir. Hesab edirik ki, bu istiqamətdə sistemli və kompleks xarakter daşıyan fəaliyyət yetkinlik yaşına çatmayanlarda düzgün mənəvi-əxlaqi dəyərlər sisteminin formalaşmasına, hüquqi şüurun inkişaf etdirilməsinə, məsuliyyət hissinin təşəkkül tapmasına, onların mənəvi-əxlaqi və hüquq normalarına uyğun davranış strategiyasını seçmələrinə kömək edəcəkdir.

## KAYNAKÇA


1. Ağayev İ.B. Azərbaycan Respublikasının Cinayət hüququ (Ümumi və Xüsusi hissələr). Bakı, 2010.
2. Azərbaycanda hüquqpozmalar. Bakı, 2020.
3. Azərbaycnda hüquqpozmalar. Bakı, 2024.
4. Əhmədova E. Yeniyetmələrin hüquqazidd davranışının profilaktikası. Bakı, DPU, 2015.

5. Hacıyeva M. Yetkinlik yaşına çatmayanların cinayət törətməsinin səbəbləri və dinamikası // Bakı: Cinayət hüququnun aktual problemləri (elmi məqalələr məcmusu) 2022.
6. Kərimli A. Motivin cinayət-hüquqi əhəmiyyəti//Hüquqi dövlət və qanun. B., 2001, №2..
7. Rəhimov İ.M. Cinayət və cəzanın fəlsəfəsi. Bakı, 2014.
8. Səmədova Ş.T., Bayramova M.N., Rzayeva S.N., Musayeva A.T., Nəzərova K.O. Cinayət hüququ (dövlət imtahan suallarının şərhi). Dərs vəsaiti. Bakı, 2022.
9. Səməndərov F.Y. Cinayət hüququ. Cinayət və cəza məsələləru B., 1994.
10. Səməndərov F.Y. Kriminologiya. Ümumi hissə. Bakı, 2003.
11. Аликперов Х.Д. Новое видение причин индивидуального преступного поведения. www.criminologyclub.ru.
12. Артеменко Н.Н.,, Малаева Л.О. Детерминанты преступности несовершеннолетних//Вопросы современной юриспруденции. 2011. №10-11(50).
13. Бусалаева А.В. Особенности формирования личности несовершеннолетнего преступника//Молодой ученый. 2023. №17(464).
14. Валиуллина Е.В. Эмпатические особенности и самооценка личности в молодом возрасте//Научный вестник Крыма. 2019. №55(23).
15. Гайнуллина А.В., Халитов О.Ф. Психологические аспекты профилактики правонарушений несовершеннолетних//Право: ретроспектива и перспектива. 2022. №3(11).
16. Демидова Е.В. О психологических особенностях личности несовершеннолетних преступников //Вестник Московского университета МВД России. 2012. №10.
17. Дикусар Я.С. Влияние семьи на формирование личности преступника//Вестник ЮГУ. 2020. №1(56).
18. Жуковская Н.Ю., Казарова Д.С. Правосознание и правая культура несовершеннолетних: понятие, особенности и психолого-педагогические аспекты формирования//Правовая культура. 2017. №4(31).
19. Игошев К.Е. Опыт социально-психологического анализа личности несовершеннолетних правонарушителей. СПб., 2005.
20. Кириллова Е.Б. Психологические предпосылки формирования противоправного поведения подростков//Научное обеспечение психолого-педагогической и социальной работы в уголоно-исполнительной системе: сб.трудов конференции. Рязань, 2017.
21. Личко А. Психопатии и акцентуации характера у подростков. СПб., 2010.
22. Малков В.Д. Криминология: учебник для вузов. М., 2006.
23. Носков О.С. Психологические особенности несовершеннолетнего преступника//Правовое государство: теория и практика. 2017. №1(47).
24. Пирожков В.Ф. Криминальная психология. М., 2007.
25. Птичкина Е.Л. Внутрисемейные детерминанты девиантного поведения старших подростков: автореф.дисс…канд.псих.наук. М., 2001.
26. Самедова Ш.Т. Уголовно-правовая защита прав несовершеннолетних//Bakı universitetitinin xəbərləri. Sosial-siyasi elmlər seriyası. 2022, №1.
27. Смолева Е.О., Шишигина С.Н. Роль семьи и референтных групп в формировании противоправного поведения несовершеннолетних//Пенитенциарная наука. 2018. №44.
28. Фельдштейн Д.И. Трудный подросток. Воронеж, 2008.